MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ

Elmira Abasova
fəlsəfə üzrə fəlsəfə doktoru
"Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi
https://doi.org/10.30546/19023.2026.1001.218

Giriş. Mənəvi dəyərlər kontekstində mühüm mövqe tutan mədəni irsimiz, qədim tarixə malik Vətənimizin və bütövlükdə sosial həyatımızın təkamül yolunu əks etdirir. Bütün mənəvi sərvətlərimiz - adət-ənənələrimiz, folklorumuz, inanclarımız, milli mətbəximiz, müxtəlif janrlı incəsənət nümunələrimiz və zəngin çalarlara malik musiqimiz, eləcə də abidələrimiz və məbədlərimiz keçmişdən gələcəyə uzanan müasir həyatımızın möhkəm körpüsüdür.

Azərbaycanın qeyri-maddi mədəni irs tarixinin araşdırılması bu sələnamədə musiqinin özünəməxsus əhəmiyyətini üzə çıxarır, onun spesifik xüsusiyyətləri ilə yanaşı, fəlsəfi mahiyyətini də əsaslandırır. Şərq xalqları arasında musiqi mədəniyyətinin inkişafında türk xalqlarının musiqisi xüsusi mövqeyə malikdir. Bu baxımdan Şərq musiqisi öz fəlsəfi izahını poeziya ilə vəhdətdə daha dolğun şəkildə tapır və dərin mənasını bu sintez vasitəsilə tamamlayır. Poeziya və musiqi vokal ifaçılıq sənətində sintez halında çıxış edən əsas amillərdəndir və biri digəri ilə sıx bağlıdır. Məhz poeziya ilə musiqinin qarşılıqlı əlaqəsi nəticəsində bir çox mütəfəkkirlər poeziyanı ruhun və sözün musiqisi adlandırmış, bu vəhdətin fəlsəfi dəyərinə həssas yanaşmağı vacib hesab etmişlər.

Elmdə geniş və sistemli tədqiqata ehtiyac duyulan xüsusi istiqamət kimi poeziya ilə musiqinin vəhdəti daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Tarix boyu Cəlaləddin Rumi, Məhəmməd Füzuli, Hafiz Şirazi, Qəzali, Sədi, Ömər Xəyyam, Əlişir Nəvai, Nəsimi, Qasım bəy Zakir, Seyid Əzim Şirvani və Seyid Həmzə Nigari kimi mütəfəkkirlər musiqiyə geniş yer vermiş, onun poetik dillə ifadə imkanlarını və mənəvi-fəlsəfi çalarlarını xüsusi həssaslıqla işləmişlər.

Dini musiqilər və ilahilər. Dini musiqilərdə, xüsusilə ilahilərdə musiqiyə və onun fəlsəfi mahiyyətinə dərin sevgi ilə yanaşan ədiblər sırasında Anadolu və Quzey Azərbaycanın görkəmli simalarından olan, bu gün də böyük hörmət və ehtiramla yad edilən Nəqşibəndi-Xalidi şeyxi Seyid Həmzə Nigari xüsusi yer tutur. Onun ilahilərində musiqinin mənəvi və irfani çalarlarına tez-tez rast gəlinir [2, s. 49].

Nigari yaradıcılığında, xüsusilə qəzəl janrında Mövlanə və Məhəmməd Füzuliyə həsr etdiyi nəzirələrdə sözün musiqi ahəngində axıcılığı diqqəti cəlb edir. Onun şeiri Haqqın sirr xəzinəsindən qopan sehrli bir nəğmə kimi ruhları oxşayır, qəlbləri titrədir və xəfif bahar rüzgarı tək bütün Şərq aləmini bürüyür.

Nigari mənzumələrində musiqi alətlərinin təsvirinə də geniş yer vermişdir. Ney, çəng, rübab, dəf, təbil, zurna, kanun, tar və tanbur kimi alətlər onun poetik dünyasında həm maddi, həm də mənəvi simvol kimi çıxış edir. Şair yaradıcılığında bu alətlərin hər biri xüsusi estetik zövqlə və irfani məna qatında təqdim olunur.

Xüsusilə qeyd etmək lazımdır ki, Şeyx Nigarinin ilahilərində ney aləti ən çox işlənən simvollardandır. O, neyə həm maddi musiqi aləti, həm də ilahi eşqin, ayrılıq yanğısının və mənəvi kamilliyə doğru çağırışın rəmzi kimi müraciət etmişdir. Mənbələrə görə, şair ilahilərində neyin adı 21 dəfə çəkilmişdir ki, bu da onun irfani-fəlsəfi düşüncəsində bu alətin xüsusi yer tutduğunu göstərir.

“Neva-yı nay tek nale-i kelbin cana kar eyler,
Kılur tesir zira nağme-i aheng-i efza” [Divan-ı Seyyid Nigarı: 10].

Bu misralarda neyin səsi qəlbin fəryadı ilə eyniləşdirilir. “Neva-yı nay” - yəni neyin sədası insanın daxilindən qopan ah-nalə kimi cana təsir edir. Burada musiqi zahiri səs deyil, ruhun dərin qatlarına nüfuz edən mənəvi enerjidir. “Ahəng-i əfza” ifadəsi isə melodiyanın artırıcı, yüksəldici təsirini göstərir, yəni musiqi insanı mənəvi yüksəlişə aparır.

Digər beytində isə şair belə deyir:

“Bend bend yanar nay-ı Mevlevi,
Söyledikce derdi-i bi-devamızı” [Divan-ı Seyyid Nigarı: 212].

Burada “nay-ı Mevlevi” ifadəsi birbaşa Mövləvi irfan ənənəsinə işarədir. “Bənd-bənd yanmaq” təsviri neyin daxilən alışıb yanmasını, yəni ayrılıq dərdini simvolizə edir. Ney danışdıqca, yəni səsləndikcə bitməyən dərdimizi söyləyir. Bu fikir Mövlanə Cəlaləddin Ruminin “Məsnəvi”sinin ilk beytlərindəki ney metaforası ilə səsləşir: ney qamışlıqdan ayrıldığı üçün fəryad edir və insan ruhunun ilahi mənbədən ayrılığını təcəssüm etdirir.

Nigari yaradıcılığında neydən sonra daha çox adı çəkilən musiqi alətlərindən biri də çəngdir. Şairin şeirlərində 19 dəfə adı keçən bu alət, keçmiş dövrlərdə sazəndə və xanəndələrin ifaçılıq sənətində mühüm yer tutmuş, musiqi məclislərinin əsas bəzəklərindən biri olmuşdur. Rəğbətlə qarşılanan bu simli alət Nigari ilahilərində də dərin poetik məna və geniş təsvir imkanları qazanmışdır. Bir növ kanona bənzəyən çəng, zəngin səslənmə imkanlarına malik olması ilə seçilmişdir. Müasir dövrdə geniş istifadə olunmasa da, orta əsr və sonrakı mərasim-məclis mühitində yüksək estetik dəyərə sahib olmuşdur. Məhz bu səbəbdən Nigari poeziyasında çəng sadəcə musiqi aləti kimi deyil, həm də ahəngin, mənəvi coşqunun və məclis mədəniyyətinin rəmzi kimi təqdim edilir. Nigari şeirlərində çəng aləti həm tarixi musiqi ənənəsinin daşıyıcısı, həm də ilahi eşq və ruhani həyəcanın poetik ifadə vasitəsi kimi özünəməxsus mövqeyə malik olmuşdur.

“Çeng çaldın cam çekdin bade içdin her ne var,
Kıldın Allah aşkına olsun helal işret sana” [Divan-ı Seyyid Nigarı: 10].

Bu misralarda çəng çalmaq, cam çəkmək və badə içmək ifadələri zahirdə məclis və işrət mühitini xatırlatsa da, sufi poetikasında bunlar ilahi eşqin məcazi ifadələridir. “Allah eşqinə olsun halal işrət sana” deyimi isə bu məclisin dünyəvi yox, irfani mahiyyət daşıdığını göstərir. Burada çəng ilahi eşqin ahəngini yaradan vasitə, badə isə mənəvi sərxoşluğun simvoludur.
Digər beytdə isə belə deyilir:

“Eşarım bu şam-ı felek,
Raks eyledi çaldı çeng-ü Nahid” [Divan-ı Seyyid Nigarı: 46].

Bu misralarda kosmik-poetik təsvir diqqəti cəlb edir. “Şam-ı felek” səmanın şamı, yəni ulduzlu gecə obrazı yaradılır. “Nahid” klassik ədəbiyyatda Zöhrə ulduzunun (Venera) adıdır və musiqi ilə əlaqələndirilir. Burada Nahidin çəng çalaraq rəqs etməsi kainatın harmonik hərəkətini, ilahi nizamı və kosmik musiqini simvolizə edir.

Nigari yaradıcılığında digər simli alətlər-rübab, kanon, tar və tanburun da vəsfi geniş yer almışdır.

“Ey müşevvik tar-mar ba’is-i teşvik kim
Kamil-i aşkam ne lazım çeng-ü aheng-ü rebab” [Divan-ı Seyyid Nigarı: 25].

Burada şair zahiri musiqi alətlərini - çəng, ahəng və rübabı - sadalayaraq deyir ki, kamil aşiq üçün bunlara ehtiyac yoxdur. “Müşevvik” və “ba’is-i təşviq” ifadələri ilahi eşqin daxili təhrikedici gücünü bildirir. Yəni kamillik mərhələsinə çatmış aşiq üçün xarici musiqi vasitələrinə ehtiyac qalmır, onun qəlbi özü ilahi ahəngin mənbəyinə çevrilir. Bu, sufi poeziyasında “batini musiqi” anlayışına işarədir.

“Oynar ashab-ı safa bade-i gülgünüm ile
Bang-i ahengim ile nağme-i kanunum ile” [Divan-ı Seyyid Nigarı: 186].

Bu beytdə məclis və irfan sintezi aydın görünür. “Ashab-ı safa” saf qəlbli insanlar, “bade-i gülgün” ilahi eşqin qırmızı şərabı (məcazi anlamda). “Bang-i ahəng” və “nağmə-i kanun” isə həm musiqi terminləri, həm də kainatın ilahi harmoniyasına işarədir. Kanun burada həm simli alət, həm də “qanun” – yəni ilahi nizam mənasında semantik çalar yaradır. Beləliklə, musiqi və kosmik nizam bir-biri ilə eyniləşdirilir.

“Mestane-i mümtazam u bi-tar bi-sazam” [Divan-ı Seyyid Nigarı: 186].

Bu ifadə xüsusilə diqqətəlayiqdir. “Bi-tar bi-sazam” yəni “tarsız və sazsız”. Şair burada zahiri alətlər olmadan da mənəvi sərxoşluq və ahəng halında olduğunu bildirir. Bu, əvvəlki beytdəki fikri davam etdirir: həqiqi eşq və irfani hal daxili musiqidir, alətsiz də mövcuddur.

“Dembedem şəhd-abı lalin çün Nigari süz-mend
Nale eyler bend bend tanbur tək eyler neva” [Divan-ı Seyyid Nigarı: 10].

Burada tanbur obrazı işlədilir. “Bənd-bənd nalə etmək” ifadəsi həm tanburun simlərinin titrəyişini, həm də aşiqin qəlb tellərinin yanmasını simvolizə edir. “Şəhd-abı lal”, yarın dodağının balı ilahi gözəlliyin cazibəsidir. Nigari özünü tanbur kimi təsvir edir: hər an yanaraq nalə edən, eşqin ahəngini səsləndirən.

Bununla yanaşı, ədibin şeirlərində digər musiqi alətləri zurna, davul və dəf də xüsusi vurğulanır. Bu alətlər daha çox mərasim, məclis və sufi ayin mühitinin atributları kimi təqdim olunur və Nigari poetikasında zahiri səs ilə batini ahəng arasında əlaqə yaradır.

Nigari qəzəllərinin “Mütrubi-tərəbsazın divaneyi-mümtazə pəndi” bölümündə şairin musiqi sahəsindəki zəngin biliyi açıq şəkildə təzahür edir. Burada o, mütribin, yəni musiqiçinin dili ilə danışaraq müxtəlif musiqi alətlərinin və muğamların adlarını sadalayır, onların hansı pərdədə ifa olunması, emosional təsir xüsusiyyətləri və estetik mahiyyəti barədə məlumat verir. Bu, şairin yalnız poetik deyil, eyni zamanda nəzəri-musiqişünaslıq baxımından da məlumatlı olduğunu göstərir.

Mütrib aşiqə “İraq”, “Segah”, “Dügah”, “Şahnaz” havalarını çalmağı və dinləməyi tövsiyə edir. Bu muğamların hər biri klassik Şərq musiqi sistemində müəyyən emosional və irfani halı ifadə edir. Məsələn, “Segah” daha çox yanğı və eşq hissini, “İraq” isə dərin təfəkkür və ruhi sakitliyi təcəssüm etdirir. Şairin fikrincə, bütün musiqi alətlərinin səsi əslində “ALLAH” söyləyir [5, s. 6]. Bu yanaşma sufi fəlsəfəsində kainatın bütöv bir ilahi zikr halında olması ideyası ilə səsləşir.

Yəni musiqi sadəcə estetik hadisə deyil, ilahi varlığın təcəllasıdır.

Klassik poeziyamızın bir çox dahiləri kimi Seyid Nigari yaradıcılığında da şeir ruhun və dilin musiqisi kimi səslənir. Bu xüsusiyyət poeziya ilə musiqinin qarşılıqlı və sıx əlaqəsinin nəticəsi olaraq iki fəlsəfi təzahürün vəhdətini formalaşdırır. Beləliklə, Nigari poetikasında söz səsə, səs isə mənəvi idraka çevrilir, şeir isə həm eşqin, həm də ilahi harmoniyanın ifadə vasitəsi olur.

Klassik ədəbiyyatımızda musiqinin tərənnümü. Musiqinin poetik vəsfinin ən bariz nümunələrindən biri XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Füzuli ənənələrinin davamçısı və klassik Şərq poeziyasının mütərəqqi xəttini yaşadan Seyid Əzim Şirvaninin "Guş qıl" müxəmməsində öz ifadəsini tapır. Böyük maarifçi ədib bu əsərində musiqiyə qarşı sərt mövqe tutan, onu haram sayan və dinləməyi günah hesab edən şəriət ehkamlarına rəğmən, əks mövqedən çıxış edərək musiqini mənəvi qida kimi təqdim edir.

Seyid Əzim Şirvaninin poetik dünyagörüşünə görə musiqi insan ruhunu oxşayan, mənəviyyatını zənginləşdirən, qəlbdəki qəm-qüssəni və kədəri dağıdan ilahi bir qüvvədir. Musiqi insanı nikbinliyə, həyat eşqinə və yaradıcılığa səsləyir. Bu baxımdan şair musiqini sadəcə estetik hadisə deyil, insanın daxili aləmini saflaşdıran, onu mənəvi kamilliyə yönəldən vasitə kimi dəyərləndirir.

"Guş qıl" müxəmməsində ədib insanı mənəvi ayıqlığa çağırır, musiqidən zövq almağı tövsiyə edir və nəğmə dili ilə dünya qəmlərindən uzaqlaşıb şad və nikbin yaşamağa səsləyir. Beləliklə, Seyid Əzim Şirvani poeziyasında musiqi həyatın mənəvi dayağı, ruhun təmizlənmə vasitəsi və insan varlığının estetik kamilləşmə yolu kimi təqdim olunur [9, s. 4-23].

Guş qıl ey ki, bilirsən özüvi vaqifi-kar,
(Ey özünü işdən başı çıxan, anlayışlı sayan insan, dinlə!)
Agəh ol, gör ki nədir naleyi ney, nəğməyi-tar,
(Oyan və düşün: neyin naləsi, tarın nəğməsi nədir?)
Nədir ol xüşk olan çubdə bu naləvi-zar,
(Quru bir qamışdan (ney) çıxan bu yanğılı fəryad nədir?)
Ki, sədasından onun qarət olur səbrü qərar,
(Onun səsi insanın səbrini və rahatlığını əlindən alır.)
Açma sən pərdəni, hər pərdədə var yüz əsrar.
(Hər musiqi pərdəsində yüz sirr var, zahiri məna ilə kifayətlənmə.)
Məna: Ney və tar zahirdə alət olsa da, batində ilahi sirdir. Burada "pərdə" həm musiqi termini, həm də metafizik qatdır.

Qoymaz ol tarı müğənni niyə ağuşindən,
(Müğənni niyə tarı sinəsindən ayırmır?)
Düşməz ol xənəbərəndazələrin duşindən,
(Niyə mizrab çalanların əlindən düşmür?)
Huş ilə guş edə hər kimsə, gedər huşindən,
(Onu anlayaraq dinləyən heyrətə düşər.)
Pənbeyi-qəfləti çək dəxi can guşindən,
(Qəflət pambığını qulağından çıxar.)
Ta ki, əsrari-nihanə olasan bəxurdar.
(Gizli sirlərdən bəhrələnə biləsən.)
Məna: Musiqini dərk etmək üçün daxili oyanış lazımdır. Qəflət insanı həqiqətdən uzaqlaşdırır.

Ləhi-Davudi ilə könlüvü qıl xürrəm sən,
(Davud peyğəmbərin ilahi nəğməsi ilə könlünü şad et.)
Ərş baminə, gözüm, nəğməni tut sülləm sən,
(Nəğməni ərşə qalxan nərdivan et.)
Olma qal əhli, qıl əmdən özüvi əbkəm sən,
(Boş söz adamı olma, əməl sahibi ol.)
Kəsb elə elmü ədəb feyzin əgər, adəmsən,
(Əgər insansansa, elm və ədəb qazan.)
Fəhm qıl, gör ki, nədir musiqiyü musiqar.
(Musiqinin mahiyyətini anlamağa çalış.)
Məna: Musiqi mənəvi yüksəliş vasitəsidir, lakin bu, elm və ədəb ilə tamamlanmalıdır.

Tut bərabər dəmi-İsayə müğənni dəmini,
(Müğənninin nəfəsini İsanın dirildici nəfəsinə bərabər tut.)
Qılıb ehya özüvü, seyr elə ruh aləmini,
(Özünü dirilt və ruh aləmini seyr et.)
Ziri-qəm olma, eşit nəğmeyi-zilü bəmini,
(Qəm altında qalma, zil və bəm səsləri dinlə.)
Çəkmə, aqilsən əgər, dəhri-müxalif qəmini,
(Ağıllısansa, dünyanın əks küləklərinin qəmini çəkmə.)
Şurə gəl, nəğmə ilə çək qəmi-dünyayə həsar.
(Nəğmə ilə dünya qəminə qalib gəl.)
Məna: Musiqi ruhu dirildir, insana həyat eşqi verir.

Musiqi məclisinin əhli gərək əhli-bəsər,
(Musiqi məclisinin adamı bəsirətli olmalıdır.)
Ta görə pərdeyi-əsrardə yüz nəqşü şüvər,
(Sirlər pərdəsində yüz mənzərə görsün.)
Kim ki zövq əhli-degil, ani hesab eylə həcər,
(Zövqsüz insanı daş hesab et.)
Ləhni-Davud eləməz növi-cəmadətə əsər,
(Davud nəğməsi daş qəlbə təsir etməz.)
Məni ərbabı edər guş süxən, ey huşyar.
(Sözümü yalnız anlayanlar dinləyər.)
Məna: Musiqi qəlbi olan üçündür; daşlaşmış ruh üçün deyil.

Fəhm qıl gör ki nədir çənkü dəfü bərbətü ud,
(Çəng, dəf, bərbət, ud nədir, anla.)
Nədir onlarda bu ahəngü bu ləhnü bu sürud,
(Bu ahəng və nəğmə haradan gəlir?)
Arif ol, rəmz bil, ey mahəsəli-qeybü şühud,
(Arif ol, rəmzi anla.)
Ud hər ləhzə gəlib, şurə deyər: ya Məbud,
(Ud hər an "ya Məbud" deyir.)
Tar hər ləhzə gəlib vəcdə deyər: ya Səttar.
(Tar vəcdlə "ya Səttar" deyir.)
Məna: Bütün alətlər zikr halındadır; musiqi ilahi adların səslənməsidir.

Zahida, tanrıya bax, məclisi-ürfandır bu,
(Ey zahid, bu məclis ürfan məclisidir.)
Tarı əsbabi-mənahi demə, böhtandır bu,
(Tarı günah aləti adlandırma.)
Meyi gör, saqiyə bax, Kövsərü qilmandır bu,
(Buradakı şərab və saqi ilahi rəmzdir.)
Cümləsi pərtövi-sübhandır bu,
(Hamısı Allah nurunun təcəllisidir.)
Meydə həqq nurunu gör, səvhinə qil istiğfar.
(Şərabda haqq nurunu gör, yanlış düşüncədən tövbə et.)
Məna: Musiqi və məclis sufi rəmzidir, zahiri qadağa ilə ölçülməz.

Ey könül, məhrəmi-naz eyləmə biganələri,
(Ey könül, yad və anlayışsız insanları sirrinə şərik etmə.)
Vermə naəhl əlinə bu dolu peymanələri,
(Bu dolu camları layiq olmayanlara vermə.)
Çək rümuzat ilə zülfü-süxənə sanələri,
(Sözün zülfündə rəmzlər işlət.)
Seyyida, Mehdiyə yalvar ki bu dürdanələri,
(Ey Seyyid, Mehdiyə dua et ki bu inci kimi sözləri)
Eyləsin məclisi-şəhvari-Kərim bəgdə nisar.
(Bu inci sözləri layiqli və səviyyəli Kərim bəy məclisində təqdim eləsin.)
Məna: Musiqi və poeziya sirrdir, yalnız anlayana verilməlidir.

Müasir dövr poeziyamızda musiqiyə münasibət. Artıq qeyd olunduğu kimi, musiqinin poetik çalarları Şərq aləmində geniş yayılmış və dərin fəlsəfi məna qazanmışdır. Bu ənənə XX əsr Azərbaycan poeziyasında da öz davamını tapmışdır. Özünəməxsus dəsti-xətti ilə seçilən, Azərbaycanda və Yaxın Şərqdə məşhur qəzəl şairi kimi tanınıb şöhrət qazanan, Füzulini özünün böyük ustadı adlandıran Əliağa Vahid dövrünün ən məhsuldar ədiblərindən biri olmuşdur.

Qəzəlxan şair yaradıcılığında klassik ənənəyə sadiq qalaraq xüsusilə Məhəmməd Füzulinin bədii üslubundan, əruz bəhrlərindən, zəngin təsvir və ifadə vasitələrindən, qafiyə və rədif sistemindən məharətlə istifadə etmişdir. Bu yaradıcılıq xətti ona həm məna dolğunluğu, həm də ifadə səlisliyi qazandırmışdır. Əliağa Vahid klassik formaya sadiq qalsa da, onu müasir dövrün ictimai və mənəvi mühitinə uyğunlaşdıraraq yeni nəfəs vermişdir [7, s. 4-10].

Musiqi məclisinin türfə əlamətləri var,
Guş qıl necə cansuz hekayətləri var.

Şair bildirir ki, musiqi məclisinin nadir və incə xüsusiyyətləri mövcuddur. “Cansuz hekayətlər” ifadəsi zahirən səssiz və cansız görünən alətlərin (tar, kamança və s.) səsində gizlənən canlı tarixə və mənəvi yaddaşa işarədir. Yəni musiqi danışmır, amma danışdırır.

Musiqi zövqünə ol kəs ki, deyildir vaqif,
Bu büsatın nə bilir nə şərafətləri var.

Musiqi zövqündən anlayışı olmayan insan bu sənətin nə dərəcədə şərəfli və dəyərli olduğunu dərk edə bilməz. “Büsat” burada musiqi məclisi, sənət mühiti deməkdir.

O da bir zülfi-siyəh dilbərin aludəsidir,
Ki, sədasında pərişanlıq işarətləri var.

Musiqi qara zülflü bir gözəlin vurğunu kimidir. Onun səsində aşiqin qəlb pərişanlığı, eşq yanğısı duyulur. Burada klassik eşq-musiqi paralelizmi qorunur.

Xar zənn etmə, saqın, musiqi xadimlərini,
Onların zövqünə gir, gör, nə nəzakətləri var.

Şair musiqiçiləri alçaltmamağı tövsiyə edir. Onların sənətində incəlik, nəzakət və yüksək estetik mədəniyyət var. Bu, musiqiyə qarşı mənfi münasibətə cavabdır.

Musiqi qəm dağıdır, zövq verir insanə,
Dərk qılmaz bunu, onlar ki səfahətləri var.

Musiqi insanın qəm-kədərini azaldır, ona zövq və mənəvi rahatlıq verir. Lakin səthi düşüncəli insanlar bunu anlamazlar.

Musiqi zövqü Hülakülərə təsir etmiş,
Oxu tarixi, gör orda nə rəvayətləri var.

Burada tarixi faktlara işarə edilir. Hətta sərt Hülakü hökmdarlarının belə musiqidən təsirləndiyi göstərilir. Yəni musiqi bəşəri gücdür, qəlbi yumşaldır.

Məscid əhli nə bilir musiqi zövqün, Vahid!
Çünki cahildirlər olduqca, cəhalətləri var.

Bu misralar şairin açıq maarifçi mövqeyini göstərir. Musiqini anlamayan və onu haram sayan dar düşüncəli yanaşma tənqid olunur. Burada Vahid klassik ənənəni davam etdirərək musiqini mənəvi-estetik dəyər kimi müdafiə edir.

Əliağa Vahid yaradıcılığında musiqi yalnız ümumi estetik anlayış kimi deyil, həm də konkret muğam ustadlarının timsalında təcəssüm etdirilir. Şair qəzəllərində Azərbaycanın görkəmli xanəndə və sazəndələrinin adını çəkərək onların sənətini yüksək qiymətləndirmiş, muğamın mənəvi-fəlsəfi gücünü dinləyiciyə çatdırmışdır.

Bu gözəl məclisimiz, ruhə qida musiqidir,
Sakit əyləşməli, qoy musiqi itmam olsun!

Burada musiqi "ruha qida" kimi təqdim olunur. Şairə görə musiqi zahiri əyləncə deyil, insanın mənəvi aləmini bəsləyən bir qüvvədir. "İtmam olsun" ifadəsi musiqinin tamamlanmasına, diqqətlə və hörmətlə dinlənilməsinə çağırışdır. Bu, musiqiyə qarşı yüksək mədəni münasibətin göstəricisidir.

Vahid, istərsən əgər musiqidən zövq alasan,
Məclisində həm Əbülfət, həm Bəhram olsun!

Burada konkret muğam ustadlarının adı çəkilir. Şair bildirir ki, həqiqi musiqi zövqü almaq üçün məclisdə sənətkar (Əbülfət Əliyev, Bəhram Mansurov) olmalıdır. Bu misralar göstərir ki, muğam yalnız ifa deyil, ustad sənətkarın ruhundan gələn bir hikmətdir. Vahid ustad sənətkarı musiqinin canlı daşıyıcısı kimi qiymətləndirir [7, s. 127].

Aşağıdakı misralar Əliağa Vahidin Hüseyn Cavidə ithaf etdiyi poetik dəyəri və ümumilikdə Azərbaycan xalqının sənətə münasibətini parlaq şəkildə əks etdirir.

Biz bir qatar tutiyi-şirin süxənlərik.
"Tuti" klassik poeziyada şirin danışan tutuquşu deməkdir. "Tuti-yi şirin süxən" şirin sözlü sənətkar obrazıdır. Şair burada özünü və Cavid kimi ədibləri şirin söz karvanı adlandırır. Yəni onlar xalqın ruhunu bəsləyən söz ustadlarıdır.

Öz nəğməmizlə zinəti-sərvi-çəmənlərik.
Sərv klassik ədəbiyyatda gözəllik və ucalıq rəmzidir. "Çəmən" isə vətən və ya həyat meydanı kimi başa düşülür. Şair demək istəyir ki, biz öz nəğməmizlə bu çəmənin (vətənin) bəzəyiyik. Yəni sənət xalqın estetik gözəlliyidir.

Gülüzlülər tərənəmizin həsrətin çəkir.
"Gülüzlü" gözəl, zərif ruhlu insanlar deməkdir. Onlar bu nəğmələrin həsrətini çəkirlər. Burada musiqi və şeirə olan ictimai ehtiyac vurğulanır.

Bağı-vətəndə bülbüli-xoş nəğməzənlərik.
Bülbül klassik poeziyada aşiq və sənətkar simvoludur. Şair özünü və Cavid kimi dahiləri vətən bağının xoş nəğmə oxuyan bülbülü kimi təqdim edir. Yəni sənətkar vətənin ruhudur.

Bizdən, həmişə zövq alıb ərbabi mərifət.
"Ərbabi-mərifət" bilik və irfan sahibləri deməkdir. Yəni həqiqi anlayışlı insanlar bu sənətdən zövq almışlar.

Biz əhli-halə ətr saçan yasəmənlərik.
Yasəmən zəriflik və xoş ətir rəmzidir. "Əhli-hal" isə mənəvi hal sahibləridir. Şair deyir ki, biz ruhani insanlara ətir saçan yasəmən kimiyik, yəni sənət ruhu zənginləşdirir.

Cavid həmişə xəlqimizin xatirindədir.
Burada Hüseyn Cavidin xalq yaddaşındakı əbədi mövqeyi vurğulanır. O, fiziki olaraq aramızda olmasa da, ruhən yaşayır.

Vahid, o yoxsa, ruhi ilə həmvətənlərik.
Şair bildirir ki, Cavid cismani olaraq mövcud olmasa da, ruhu ilə bizimlədir. Bu, sənətin ölməzliyinə işarədir [7, s. 119].

Musiqinin qaynağı muğam çağdaş ədəbiyyatda. Bu mətn bütövlükdə göstərir ki, musiqinin poetik ahəngi klassik dövrdən başlayaraq çağdaş ədəbiyyatımıza qədər fasiləsiz şəkildə davam edən bir ənənədir. Əgər Seyid Nigari, Seyid Əzim Şirvani və Əliağa Vahid musiqini irfani və estetik müstəvidə tərənnüm etmişlərsə, Bəxtiyar Vahabzadə bu ənənəni XX əsrdə milli-fəlsəfi səviyyəyə yüksəltmişdir.

Şair "Muğam" poemasında incə poetik çalarlarla Şərq aləminə məxsus muğamları sadalayır,

onların hər birini milli musiqimizin zirvəsi və əsas qaynağı kimi böyük həssaslıqla təqdim edir. Bu mənada Bəxtiyar Vahabzadə musiqini ilkin varlıq hadisəsi kimi dəyərləndirir və onun bəşəriyyətə gətirdiyi fundamental mənəvi anlayışları ön plana çəkir:

Sözdən əvvəl səs yaranır,
Nəğmələrdir ilk dilimiz.
Nəğmələrdir
Sözümüzün, fikrimizin ibtidası,
Nəğmələrdir dilimizin əlifbası [6, s. 210].

Bu misralarda musiqi daha geniş anlamda ilkin dəyərlər müstəvisində təqdim olunur. Şairə görə səs və nəğmə insan düşüncəsinin başlanğıcıdır, söz və fikir musiqidən doğur. Beləliklə, musiqi yalnız estetik hadisə deyil, həm də ontoloji başlanğıcdır.

Bəxtiyar Vahabzadənin muğama, milli musiqimizə və türk soykökünə bağlılığı onun fəlsəfi təfəkküründən qaynaqlanır. Bu bağlılıq poemanın sonunda verilən muğam rədifli qəzəldə daha qabarıq şəkildə öz əksini tapır və əsər dərin məzmunlu, təsirli bir sonluqla tamamlanır:

Daş ürəklərdə yanıb daşları sındırdı muğam,
Haqqa düşmən olan haqqa tapındırdı muğam.

Nə güman eyləmisən ondakı tilsimləri sən,
‘Kürü ahıyla qururdu’, ‘Salı yandırdı’ muğam.

Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı muğam.

O, ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.

Dəfn edin siz məni Zabul Segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.

Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam [6, s. 210].

Bu qəzəldə muğam daş ürəkləri yumşaldan, kin və qəzəbi söndürən, vicdanı oyadan, tarixi yaddaşı dirildən qüvvə kimi təqdim olunur. O, həm milli kimliyin səs yaddaşı, həm də mənəvi dirçəliş mənbəyidir. Şairin “Zabul Segahın mayəsinə” dəfn olunmaq arzusu isə muğamın metafizik gücünə inamın poetik ifadəsidir.

Bəxtiyar Vahabzadə klassik poetik-musiqi ənənəsini müasir düşüncə ilə sintez edərək muğamı xalqın mənəvi taleyinin, yaddaşının və fəlsəfi idrakının simvoluna çevirir. Bu isə musiqinin çağdaş ədəbiyyatımızda da öz dərin poetik və fəlsəfi missiyasını davam etdirdiyini bir daha sübut edir.

Musiqinin digər məziyyətləri. Bir çox elmi araşdırmalar sübut etmişdir ki, musiqi təkcə estetik

və mənəvi qida mənbəyi deyil, eyni zamanda mühüm tibbi və eko-bioloji əhəmiyyətə malikdir. Həqiqətən də musiqi tarix boyu xalqlar və millətlər arasında ümumi ünsiyyət dili yaratmış, insanların gündəlik həyatına daxil olaraq onlara estetik zövq bəxş etmişdir. Lakin musiqinin bundan əlavə daha bir qiymətli xüsusiyyəti vardır, o, eyni zamanda əvəzsiz müalicə vasitəsidir.

Qədim dövrlərdən etibarən həkimlər və müdriklər müalicə prosesində musiqidən geniş istifadə etmişlər. Antik Yunan fəlsəfəsinin görkəmli nümayəndəsi Platon musiqini insan xarakterinin formalaşmasında mühüm amil hesab etmişdir. Əbu Əli İbn Sina isə hələ orta əsrlərdə musiqinin əsəb və psixi xəstəliklərin müalicəsində təsirli vasitə olduğunu praktik şəkildə göstərmişdir. XIX əsrin əvvəllərindən etibarən fransız humanisti və psixoloqu Eskirol musiqini psixoloji müəssisələrdə əsas müalicə üsullarından biri kimi tətbiq etmişdir. Qərbi Avropada XIX əsrin ortaları musiqinin terapevtik vasitə kimi empirik tətbiqi dövrü olmuşdur. İmanuel Mextentalın "Musiqi həkimi" adlı kitabında nəşr olunan elmi-psixoloji məqalələrdə musiqinin köməyi ilə podaqra, revmatizm, sayıqlama, əsəb pozuntuları və digər xəstəliklərin müalicə üsulları haqqında məlumat verilmiş, hətta müəyyən reseptlər təqdim olunmuşdur.

Müasir təbabətdə də musiqinin rolu xüsusi vurğulanır. İbrahim Topçubaşov və Arif Hacıyev qeyd etmişlər ki, musiqidən cərrahiyyə əməliyyatlarından əvvəl xəstələrin həyəcanını azaltmaq, əməliyyat zamanı qorxu hissini aradan qaldırmaq və əməliyyatdan sonra ağrıları yüngülləşdirmək məqsədilə istifadə olunması məqsədəuyğundur. Tədqiqatlar göstərmişdir ki, musiqi seansları əməliyyatların daha rahat keçməsinə və xəstələrin daha tez sağalmasına müsbət təsir göstərir.

Bəstəkar Oktay Rəcəbovun araşdırmaları da diqqətəlayiqdir. Onun tədqiqatları sübut etmişdir ki, musiqi uşaq psixologiyasında mühüm tərbiyəvi rol oynayır, uşaqların davranışının və təfəkküründün formalaşmasında əhəmiyyətli təsirə malikdir.

Musiqidən psixoterapevtik təcrübədə də geniş istifadə olunmuşdur. XX əsrə aid tədqiqatlarda Q.Şipulin göstərmişdir ki, minor qammalarında yazılmış, yəni həzin ahəngli musiqilər müalicəvi təsir baxımından daha effektlidir. 1936-1940-cı illərdə Sankt-Peterburq yaxınlığında fəaliyyət göstərmiş psixonevroloji dispanserdə çalışan məşhur nevropatoloq Vladimir Bexterev musiqinin depressiv xəstəliklərin müalicəsində təsirli vasitə olduğunu elmi əsaslarla sübut etmişdir [1, s. 28-29].

Beləliklə, musiqi yalnız estetik zövq mənbəyi deyil, həm də mühüm müalicə və tərbiyə vasitəsidir. Onun təsir dairəsi genişdir və bütün canlı aləm bu ecazkar təsiri hiss edə bilir. Musiqi insanın ruhuna, psixikasına və fizioloji vəziyyətinə kompleks şəkildə təsir göstərərək onu mənəvi və fiziki baxımdan sağlamlaşdıran nadir sənət növüdür.

Nəticə. Maddi və mənəvi dəyərlərin məcmusu olan mədəniyyət anlayışı özündə həm musiqini, həm də ədəbiyyatı birləşdirir. Mücərrəd təfəkkürdən doğan bu anlayışın estetik mədəniyyətə əsaslanan xüsusiyyəti onun insan fəaliyyətini əks etdirən spesifik mahiyyətində ifadə olunur. Musiqi ilə poeziyanın vəhdətində təzahür edən amillər yalnız cəmiyyət tərəfindən toplanmış biliklərin məcmusu deyil, eyni zamanda insan yaradıcılığının canlı və dinamik prosesidir. Milli musiqimiz mədəniyyətin əsasını təşkil edən ənənələrin daşıyıcısıdır. Bu ənənələrin miqyası nə qədər zəngin və genişdirsə, bəşəriyyətin ayrılmaz tərkib hissəsi olan xalqın mənəvi həyatı da bir o qədər zəngin olur [4, s. 478-494].

Zəngin mədəni irsə malik olan Azərbaycan mədəniyyət və mənəviyyat nümunələri ilə YUNESKO-da təmsil olunmaq üçün möhkəm zəmin yaratmışdır. Azərbaycanın YUNESKO-da yer alan möhtəşəm maddi və qeyri-maddi irs nümunələri sırasında milli musiqimiz xüsusi mövqe tutur. Qədim tarixə malik musiqi incəsənətimiz öz rəngarəng çalarları ilə milli

tariximizin ayrılmaz hissəsidir. Sovet dövrünün şovinist siyasətinə baxmayaraq, muğam, aşıq sənəti və ümumilikdə milli musiqimiz Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Cabbar Qaryağdıoğlu, Mirzə Məhəmməd Həsənbəy və digər sənətkarların, eləcə də müxtəlif bölgələrdə fəaliyyət göstərən "Məclisi-üns" kimi ədəbi-musiqi məclislərinin fədakarlığı sayəsində qorunmuş, nəsildən-nəslə ötürülərək müasir səviyyəyə çatdırılmışdır. Bu dəyərlərin gələcək nəsillərə bütöv şəkildə ötürülməsi mədəni irsin qorunmasının ən mühüm məsələlərindən biridir.

Azərbaycan musiqi incəsənətinin inkişaf tarixi göstərir ki, milli mədəniyyətimizin, xüsusilə xanəndəlik sənətinin formalaşmasında muğamın xüsusi rolu olmuşdur. Azərbaycan musiqisi milli zəmin üzərində inkişaf etmiş, eyni zamanda dünya mədəniyyətinin qabaqcıl nailiyyətlərindən bəhrələnərək müasir səviyyəyə yüksəlmişdir. Bu prosesdə muğam musiqisi və xanəndəlik sənəti aparıcı mövqe tutmuşdur [3, s. 93].

Mədəniyyət sahəsində həyata keçirilən dövlət siyasəti və göstərilən diqqət bu irsin qorunmasında həlledici rol oynamışdır. Xüsusilə, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri, keçirilən muğam müsabiqələri və beynəlxalq layihələr milli musiqimizə, aşıq sənətinə və qeyri-maddi mədəni irsimizə olan diqqətin güclənməsinə mühüm təsir göstərmişdir. Bu səylər nəticəsində Azərbaycan muğamı 2008-ci ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş və yeni mərhələ başlanmışdır [8].

Azərbaycanda mədəni irsin qorunması istiqamətində həyata keçirilən tədbirlər gələcəkdə daha geniş imkanlar açır. Bununla yanaşı, hələ siyahıya daxil edilməmiş qeyri-maddi mədəni irs nümunələrinin araşdırılması və beynəlxalq səviyyədə tanıdılması da zəruridir. Dövlət qurumları ilə yanaşı, ictimai təşkilatların, alimlərin və yerli icmaların bu prosesə fəal cəlb olunması daha səmərəli nəticələr verə bilər. YUNESKO ilə əməkdaşlığın davam etdirilməsi Azərbaycanın mədəni irs siyasətinin beynəlxalq miqyasda möhkəmlənməsinə şərait yaradır. Təhsil proqramlarında və maarifləndirici layihələrdə mədəni irs mövzularının geniş yer alması isə gənc nəslin milli dəyərlərə marağını artıracaqdır.

Beləliklə, mədəni irsin qorunması yalnız keçmişin yadigarlarının saxlanılması deyil, həm də onların müasir dövrdə yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyət daşıyan mühüm vəzifədir.

Ədəbiyyat:

1. Abasova E.M. Musiqi və psixologiya // Elm və həyat. – 1983. – № 12. – S. 28–29.
2. Nigari M.H.S. Nigarnamə. – Bakı: Elm və təhsil, 2012.
3. Qasımov Ş.M. Azərbaycanın qeyri-maddi mədəni irsi və onun YUNESKO-dakı yeri // Mədəni irs beynəlxalq ustad məktəbi: tədris vəsaiti / tərt. F. Xəlilli. – Bakı: AFPoliqrAF, 2025. – S. 87–102. – DOI: https://doi.org/10.30546/978-9952.2025.1087
4. Rüstəmov Y.İ. Fəlsəfənin əsasları. – Bakı: Azərbaycan Universiteti, 2004.
5. Turabi A.H. Seyid Mir Hamza Nigarinin hayatı ve bestelenmiş eserleri. – Amasya: Amasya Belediyesi Kültür Yayınları, 2016.
6. Vahabzadə B.M. Seçilmiş əsərləri. – Bakı: Öndər, 2004.
7. Vahid Ə.M. Seçilmiş əsərləri. – Bakı: Lider, 2005.
8. YUNESKO. Azerbaijani mugham [Elektron resurs] // YUNESKO Intangible Cultural Heritage. – 2008. – URL: http://ich.YUNESKO.org/en/RL/azerbaijani-mugham-00039 – Götürülmə tarixi: 27.02.2026.
9. Şirvani S.Ə. Seçilmiş əsərləri. – 3 cilddə. – I cild. – Bakı: Avrasiya Press, 2005.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300